**Azərbaycan Turizm Bürosu tərəfindən ulduz kateqoriyaları üzrə lövhələrin istehsalı, quraşdırılması və sertifikatların çap xidmətlərinin satın alınması məqsədilə keçirilən kotirovka sorğusu haqqında**

**B İ L D İ R İ Ş**

Müsabiqədə iddiaçı qismində ixtisaslı işçi heyətinə malik mikro və kiçik sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən iddiaçılara təklif edilir ki, dövlət satınalmalarının https//www.etender.gov.az/ vahid internet portalına (portal) elektron imzaları vasitəsilə daxil olsunlar və kotirovka sorğusu haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi işçi qüvvəsinə və peşəkar təcrübəyə malik olmalıdırlar. İddiaçılar müəyyən məbləğdə iştirak haqqını (ASAN ödəniş vasitəsilə) elektron portalda göstərilmiş hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş kotirovka sorğusunun əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edə və müsabiqə üçün təkliflərini təqdim edə bilərlər:

Müsabiqədə iştirak haqqı 10 manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır.İddiaçılar

müsabiqdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Müsabiqədə iştirak haqqının ödənilməsi barədə bank sənədi (ASAN ödəniş);
2. Təklif (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Təchizatçı haqqında:

a. Təchizatçı fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;
b. hüquqi şəxs olduqda isə dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışı) və nizamnaməsinin surəti;
c. birgə fəaliyyət göstərdikdə birgə fəaliyyətə dair müqavilənin surəti və ya müqavilə bağlamaq barədə niyyət məktubu;

Təchizatçı haqqında özü tərəfindən hazırlanmış arayış:

a. Hüquqi və fiziki şəxs olduqda (FORMA 5) və (və ya)
b. Birgə fəaliyyət olduqda 2 a bəndinə əlavə olaraq (FORMA 6)

Təklifi imzalayan digər vəzifəli şəxs olduqda – etibarnamə.

Subpodratçı cəlb olunacaqsa təchizatçı tərəfindən hazırlanmış arayış (FORMA 8)

4. Əmlakdan sərbəst istifadə - Daşınmaz əmlaka münasibətdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və nəqliyyat vasitələrinə münasibətdə Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış, digər hallara münasibətdə təchizatçının özü tərəfindən hazırlanmış arayış (FORMA 1),
5. Müflislik - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış;
6. Vergi və əmək qanunvericiliyi öhdəliyi - Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilən arayış;
7. Fəaliyyət qadağası - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilən arayış;
8. Məhkumluq - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən verilən arayış;
9. Peşəkarlıq və təcrübə - Təchizatçının təcrübəsi barədə təchizatçının özü tərəfindən hazırlanmış arayış (FORMA 7), məlumat və təsdiqedici sənədlər (təhvil-təslim və ya yekun təhvil- təslim aktları, elektron qaimə və s.);
10. İşçi qüvvəsi - Təchizatçının özü tərəfindən hazırlanmış arayış (FORMA 4), məlumat və təsdiqedici sənədlər
11. Digər sənədlər (kotirovka sorğusunun əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər). Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki kotirovka sorğusuna dair sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Mətnlər arasında fərq aşkar olunarsa, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. İddiaçılar müsabiqə ilə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Yerinə yetiriləcək işlərin siyahısı aşağıdakı kimidir:

1) Lövhələrinin hazırlanması və quraşdırılması
2) Sertifikat çapı

Kotirovka sorğusu ilə əlaqədar istənilən məlumatı almaq üçün aşağıdakı şəxsə müraciət etmək olar.

Əlaqələndirici şəxs – Samirə Ağayeva.
Ünvan – Bakı şəhəri, Ü.Hacıbəyli 134, 4-cü mərtəbə.
Telefon- +994125058704 (əlavə 2301); Faks: +994124920592.
E-mail: samira.aghayeva@tourismboard.az

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, kotirovkada iştirak üçün sənədləri (kotirovka təklifi və təklifin bank təminatı daxil olmaqla) 29 iyul 2025-cü il saat 12.00-dək portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçılar tərəfindən təqdim olunmuş təkliflərin açılışı 29 iyul 2025-cü il saat 12.00-dək dövlət satınalmalarının vahid internet portalında virtual iclas formatında aparılacaqdır. Elektron satınalmanın hər bir iştirakçısı onların təkliflərinin açılışını və qiymətləndirilməsini elektron portal vasitəsilə izləyə bilər.

QEYD-müsabiqədə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada portal vasitəsilə aparılır.

**Satınalma komissiyası**